# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimai-siyasi, publisistik qəzet №27 (1283) 01 oktyabr 2025-ci il Qiymәti 1 manat Qəzet 1999-cu ilin oktyabrından çıxır


## Əli Rza XƏLƏFLİ - 72

# MƏN KİMƏM?



## DİRİLMƏ... KİMLİYƏ QAYIDIŞ

Əziz dostum, bilirsənmi bu diyarda mən kiməm?
Yol gedirik bir zamanda, bir qatarda - mən kiməm?
Od içindən keçdi yolum, hələ yenə oddayam,
Soruşuram qürub çağı - günbatarda mən kiməm?

Qələm tutan çox olsa da, az tapılar söz yollu,
Az tapılar mənim kimi... hanı indi köz yollu.
Axtar, ara, taparsanmı bir kimsəni düz yollu.
Görmüsənmi mənim kimi etibarda, mən kiməm?

Söz sinəmdə saçaq-saçaq dənə dolmuş sünbüldü,
İlham pərim başım üstə bir nəğməli bülbüldü;
İlk sevgidən üzü bəri duyğularım gül-güldü,
Öz əhdimlə sınanmışam dostda, yarda, mən kiməm?

Bir ömürlük qəm evimdə qazandığım kədərdi,
Savaş açdım vüsal üçün, demədim ki, hədərdi,
Pay-pay böldüm yazdığımı çörək dərdi, ev dərdi.
Sərvətliyəm - kitab-kitab, dövlət-varda, mən kiməm?

Tək deyiləm, baş-başayam, həmdəmim var yanımda,
Eşqə sadiq etiqadım - damarımda, qanımda:
Daşıyıram qocalığın ağrısını canımda,
Kövrəlirəm baxa-baxa, bu qübarda mən kiməm?

Bu dünyanın kanvanında- öz köçündə şairəm,
Tamahım yox nə varında, nə heçində, şairəm.
Hər kəlməsi, hər misrası od içində şairəm,
Könül alan söz tapılar sənətkarda, mən kiməm?

Vətənoğlu Bəhmən gəlsə, mənə gəzər, söz dərər,
Talıb oğu Haqverdinin nəzərləri düz görər;
Mən düşdüyüm bu daşqına sinəsini kim gərər,
Ustadların özü deyər, gür axarda mən kiməm?

Halalım var, haramlıqda - gözüm olmaz dünyada.
Mən bilirəm nə yazmışam - sözüm solmaz dünyada,
Zənn etmə ki, mən gedərəm izim qalmaz dünyada.
Hər açılan dan üzündə - gündoğarda mən kiməm?

Mən Qurbani xələfiyəm, Xələflidə küləyəm,
Qarabağdan Qaradağa Təbriz yollu diləyəm;
Xudafərin körpüsündə durna salmış lələyəm,
Ruhum inlər Araz boyu - Şəhriyarda mən kiməm?

*25.09.2025*

*Əli Rza XƏLƏFLİ*

**MÜƏLLİFDƏN:** ***01 oktyabr. mənim ad günümdür. Hər halda rəsmi sənədlərdə belə qeyd olunub. Sabah 73-cü yaşımın yeni pillələrinə qalxacağam. Əlbəttə, Uca Yaradandan yardım olsa...***